# Əvəzçıxma “eşq”i ilə yaşayan Ermənistana 13 sentyabr dərsi



***Sevinirdik ki, müharibə bitdi, münaqişə həll edildi, torpaqlarımız 30 illik işğaldan azad edilib sahibinə qaytarıldı. Azad edilən ərazilərdəki bərpa – quruculuq, tikinti – abadlıq işləri qəlbimizi fərəhləndirirdi. Qarabağdan gələn hər yeni xəbərlə qanadlanırdıq... Amma düşmənimiz olan millətə anlada bilmədik ki, hər şey bitib. İnanmadılar ki, havadarları ilə gizli sövdələşmələri, açıq-aşkar təxribatları ilə heç nəyə nail ola bilməyəcəklər. Ermənistan növbəti təxribatı ilə yenə gündəmə gəldi. Sentyabrın 12-dən 13-nə keçən gecə Azərbaycan ərazisində yeni təxribat törətdi. Və... şəhid xəbərləri ruhumuzu oynatdı. Əlli (hələlik) ocağa düşən qığılcımın istisi ürəkləri yandırıb-yaxdı. Neçə yurd boş qaldı, neçə ana əli qoynunda “balam gələcək”, – deyib inlədi, neçə atanın gələcəyə ümidi söndü...***

Ermənistanın bu həyasızlığı, üzdə bir, əməldə fərqli olan iddiası ilə bağlı publisist Əkbər Qoşalının münasibətini öyrəndik. Ə.Qoşalı təxribata cavab olaraq, çox mühüm yüksəkliklərin ordumuzun nəzarətinə götürüldüyünü, bununla da nə indi, nə də gələcəkdə Ermənistanın Azərbaycana heç bir real təhlükə yarada bilməyəcəyini, həmin günün onlara verilmiş növbəti 13 sentyabr dərsi olduğunu vurğuladı. Eyni zamanda, ordumuzun qarşı tərəfə qan uddurduğunu dedi:

– Ermənistanın Azərbaycan Respublikası ilə sərhədin Laçın, Kəlbəcər və Zəngilan istiqamətində qurduğu bütün hərbi təyinatlı obyektlər darmadağın edilib. Çünki həmin obyektlər müdafiə qüvvələrimizin, azad edilmiş ərazilərdə dinc bərpa-quruculuq işləri aparan inşaatçılarımızın, (ümumən Azərbaycan Respublikasının) təhlükəsizliyinə ciddi təhdid yaradırdı. Dağıdılmış hərbi obyektləri bərpa etmək üçün Ermənistana ən azı 4 – 5 il vaxt gərəkdir. Bəs çökən iqtisadiyyat, fərari yetişdirməyə yarayan ordu, didişən kütlə, ruhsuz əhali və iki fərqli stulda eyni vaxtda oturmağa çalışan hakimiyyətlə Ermənistan 4 – 5 ildə bərpaya səfərbər ola biləcəkmi?

Azərbaycan Silahlı Qüvvələri həmin bölgədə bütün nəqliyyat – kommunikasiya sistemini, çox önəmli yüksəklikləri nəzarətə götürdü. Artıq nə indi, nə də gələcəkdə Ermənistan Azərbaycana heç bir real təhlükə yarada bilməyəcək!

Ermənistanın xeyli sayda hərbi texnikası, iki uzaqmənzilli S-300 zenit–raket kompleksi, 200 nəfərə yaxın canlı qüvvəsi, çoxlu sayda hərbi obyekti və onlarca postu məhv edildi. Ermənistanda yüzlərlə yaralı var ki, artıq onların bir çoxu xidmətə yaramayacaq. Üstəlik, teleqram kanallarında əsir götürülmüş erməni diversantlar barədə görüntülər paylaşılmaqdadır.

Ə. Qoşalı bildirdi ki, Ermənistanın bütün parametrlərə görə itkiləri Azərbaycandan qat - qat çoxdur. Erməniyə nifrət ruhunda köklənən həmsöhbətim dedi:

– Daha çox olsun! Burada hərbi itkilərlə yanaşı, Ermənistanın əvəzçıxma ümidlərinin itirilməsi kimi çox önəmli amil də var. Bu, çox mühümdür. Şanlı ordumuz Ermənistanın hərbi bölmələrimizə, ümumən, ölkəmizə qarşı ardıcıl təxribatların hansı acı nəticələrə gətirib çıxaracağını bir daha göstərdi. Necə deyərlər, bunu dost da gördü, düşmən də. O cümlədən, Xocalıda, Xankəndidə, Əsgəranda... məskunlaşdırılmış, sülhəgəlməz, haqtanımaz separatçılar da gordü görəcəyini...

Sirr deyil ki, son zamanlar Ermənistan cidd-cəhdlə yeni hərbi əməliyyatlara – hücuma hazırlaşırdı. Həm Qarabağ iqtisadi rayonunda, həm də sərhəd xəttində təxribatların sayı artmışdı. Azərbaycan Silahlı Qüvvələri məhz Ermənistanın ərazisində (toplam 7 saat davam edən) unikal əməliyyat gerçəkləşdirməklə bütün bu planları alt-üst etdi. Ermənistan başa düşməlidir ki, kiməsə, hansısa qüvvələrə arxalanıb Azərbaycanı fakt qarşısında qoya bilməz! Başa düşəcəkmi? Başa düşəcəksə, demək, “dəmir yumruq” xəstə beyinləri nəhayət, müalicə edib. Başa düşməyəcəksə, “dəmir yumruq” yerindədir və boş başlara yenə enəcək: bu dəfə daha ağır, daha sarsıdıcı!

Azərbaycanın nə ermənilərə, nə dünyaya öz gücünü sübut etməyə ehtiyacı yoxdur. Çünki iki il əvvəl “dəmir yumruğ”un gücünü görüblər, bilirlər ki, həmin “yumruq" yerindədir.

Ə. Qoşalı söhbətini belə bitirdi:

– Allah dövlətimizi, Ali Baş Komandanımızı qorusun!

***Hazırladı:***
***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 15 sentyabr.- S.4.